# CAVAD HEYƏTİN ƏSƏRLƏRİNDƏ DİNİ MAARİFÇİLİK MƏSƏLƏLƏRİ

***Salam. 25 apreldə AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda Cavad Heyətin 100 illiyi münasibətilə keçirilmiş "Cavad Heyətin elmi və ictimai fəaliyyətində azərbaycançılıq və türkçülüyün fəlsəfəsi" mövzusundakı konfransda edilmiş "Cavad Heyətin əsərlərində dini maarifçilik məsələləri" adlı məruzəmi sizə göndərirəm.***

***Öncədən təşəkkür edirəm.***

***Hörmətlə, Əli Fərhadov.***
***Tarix Muzeyinin elmi işçisi, dosent.***

Görkəmli Azərbaycan mütəfəkkiri, təbrizli həkim və yazar Cavad Heyətin yetişməsində atası Mirzə Əli Heyət böyük rol oynamışdır. Mirzə Əlinin atası Mirzə Tağı xan Qacar vəliəhdi Məhəmmədəli Mirzənin saray katibi olmuşdur. Mirzə Əli Heyət görkəmli din alimi və ictimai-siyasi xadim idi. O, məşrutə inqilabında iştirak etmiş, I Dünya Müharibəsi illərində Osmanlı türkləri tərəfindən qurulan İttihadi-islam təşkilatının İran şöbəsindəki rəhbəri, daşnakların Naxçıvana hücumu zamanı oraya göndərilən Qacar heyətinin sədri olmuş, daha sonralar İran Azərbaycanın, daha sonar isə İranın Ali Məhkəmə sədri, Baş prokuror və ədliyyə naziri vəzifələrində işləmişdir. O, Təbrizdə mədrəsə təhsili almış, Nəcəfdə məşhur məşrutəçi ruhani müctəhid Axund Məhəmmədkazım Xorasaninin tələbəsi olmuş, Qahirədə əl-Əzhərdə ali dini təhsilini davam etdirmiş, müctəhid və fəqih adını almışdı. Məşrutə hərəkatı zamanı Axund Xorasaninin və digər Nəcəf ruhanilərinin şah rejimi əleyhinə verdiyi inqilabi fətvaları Təbrizə çatdıran heyətin və məşrutəçi Azərbaycan alimləri heyətinin sədri olduğu üçün Heyət soyadı ilə məşhurlaşmışdır. Cavad Heyətin mənsub olduğu ailə hələ Qacarlar dövründən adlı-sanlı ailənin mənsubu kimi həm şahlıq dönəmində, həm də İslam Cümhuriyyəti zamanında özünün ədəbiyyat, mədəniyyət, dilçilik, fəlsəfə, ilahiyyat və sair sahələrdəki tədqiqatları ilə şan-şöhrət qazanmışdı. Cavad Heyətin insanlıq, yurd, türklük sevgisi ilə yetişməsində atası Mirzə Əli Heyət böyük rol oynamışdır.

Cavad Heyətin anası Məsumə Sultan da, Füruğ tayfasının lideri, tanınmı. din alimi Hacı Mirzə Məhəmmədin qızı idi. Hələ 1940-cı illərin əvvəllərində Doktor Cavad Heyətin atası Mirzə Əli Heyətin dəstəyi ilə Tehranda fars dilində "Azərbaycan" qəzeti nəşr olunmağa başlamışdı və Həmid Nitqi də bu nəşrin hazırlanmasında yaxından iştirak etmişdi və Cavad Heyətlə dostluğu da o zamandan başlamış, İstanbulda təhsil illəri onları daha da yaxınlaşdırmışdı. 1952-ci ildə Tehrana döndüklərində hər ikisinin yaxından iştirakı ilə əsası məşrutə dövründə qoyulmuş "Azərbaycan Əncüməni (Cəmiyyəti)" yenidən bərpa edilib qurulmuşdu. Bu barədə Həmid Nitqi yazırdı: "O zamanlar Tehranda azərbaycanlılar müxtəlif adlar altında və cürbəcür bəhanələrlə görüşmək və ana dilində şeir oxumaq, musiqi dinləmək, necə deyərlər, "özlərinə gəlmək" üçün qonaqlıqlar və toplantılar tərtib edirdilər. Cavad Heyət bunların çoxunun içindəydi.

Pəhləvi rejiminin süqutu anadili və mədəniyyətinə qoyulan qadağaların məhvinə səbəb oldu. Cavad Heyət yazır ki, Biz ancaq İslam İnqilabından sonra ölkəmizdə Türkcə əsərlər, jurnallar nəşr edə bildik. Varlıq da belə meydana çıxdı. Lakin o, pəhləvilər tərəfindən başladılan şovinizm siyasətinin təəssüf ki, bəzi hallarda davam etdirildiyindən, islam inqilabının verdiyi haqların tam icra edilmədiyindən də şikayət edirdi.



Cavad Heyət Varlıq jurnalındakı yazılarında ərəb əlifbasından uzaqlaşan türklərin öz şanlı keçmişi və İslam dünyası ilə əlaqəsini itirdiyini, bugünkü nəslin əksəriyyətinin keçmişinə biganə qaldığını yazırdı. Onlar öz qədim əsərlərini, yazılı abidələrini oxumaqdan məhrumdur, İslam dünyası ilə elmi əlaqələri məhduddur, yalnız tərcümə və transliterasiya yolu ilə ünsiyyət qura bilirlər. Onun sözlərinə görə, Quran və islam hərfləri bütün müsəlmanların, yəni iranlıların və türklərin hərfinə çevrilib. Dil, ədəbiyyat, təsviri sənət, tarix və Qurani-Kərim də daxil olmaqla, bütün dini və qeyri-dini əsərlərimiz bu əlifba ilə yazılıb. Bütün bunlarla vi-



dalaşmaq və milyonlarla türkdilli xalqı bir-birindən uzaqlaşdırmaq düzgün addım sayıla bilməz. Cavad Heyət türklərin bir əlifba altında birləşməli olduğunu müdafiə edirdi. Onun fikrincə, hər bir türkün, xüsusən də müsəlman türkün, başqa əlifbalardan istifadə etməsələr də, köhnə türkcə adlanan ərəb əlifbasını bilməsi və türkdilli xalqlar arasında ortaq yazı kimi istifadə etməsi faydalı və hətta zəruridir.

Cavad Heyətə görə, atalarımızın və babalarımızın Qurani-Kərimdən və Peyğəmbərimizin kəlamlarından ilhamlanaraq yaratdığı bu mənəvi varlıq və sərvət bizə bu gün mədəni xalqlar arasında yaşamaq, başımızı dik tutmaq haqqı verir. Bunları oxumaq, anlamaq, mənimsəmək, onlardan ilham alaraq dünya miqyasında yeni və müasir əsərlər yaratmaq bizim milli borcumuzdur. Ona görə də bunlardan uzaq durmaq bizi özümüzdən uzaqlaşdıracaq, başqalarından asılı vəziyyətə salacaq. Cavad Heyət bu sualı verirdi: Özünü müsəlman hesab edən və ya dərin milli şüura malik bir türk və ya fars öz şanlı keçmişini öyrənmədən, qucaqlamadan necə yaşaya bilər?

Cavad Heyətin dini mövzuda əsərləri bunlardır:

Vətən və İslam İranlılığının Əsasları, Tehran, Mart 1978 (Farsca).

İslam Mədəniyətinin Qərb Mədəniyyətinə Təsiri, Varlıq jur., 1979, No: 10 (Farsca).

İslam, İnsan, "Sartr" və şəriəti, Tehran, Aprel 1979 (Farsca).

Həzrəti Əlinin Nəsihətləri, (Ərəbcədən tərcümə), Varlıq jur., 1980, No: 6.

İslamda və Başqa Məktəblərdə Əxlaqın Əsasları, Varlıq jur., 1982, No: 11-12, (Farsca).

Yunis Əmrə mütəsəvvif, Türkiyə xəlqi şairi, Varlıq jur., 1983, No: 5-6, (Farsca).

Həzrəti Məhəmmədinin Nəsihətləri (Ərəbcədən tərcümə), Varlıq jur., 1983.

Quran və İslam, Varlıq jur., 1991, No: 1-3.

İslamın Terrrora Münasibəti, Varlıq jur., 121-2, Tehran 2001.

Varlıq jurnalında İran türklərinin şah rejiminə qarşı inqilabi mübarizəsi geniş işıqlandırılırdı. Onun ilk sayında təqdim edilən "Əncümən-e Azərbaycan"nın 1980-ci ilin yanvarında (5 bəhmən 1380 şəmsi) elan etdiyi Bəyannaməsində vurğulanırdı ki, istibdada qarşı tərəqqipərvər azərbaycanlıların mübarizəsi XIX əsrdə Nəsirəddin şah zamanı, tütün qadağası zamanı ingilis şirkətinə qarşı başladı (Təbrizdə 1891-ci ildə başlanan məşhur tənbəki hərəkatı), İranda azərbaycanlıların da fəal iştirakı ilə 5 avqust 1906-cı il tarixində (qəməri 14 cəmadisani 1324-cü il) Məşrutə fərmanının verilməsi ilə nəticələndi, beləliklə, Qanuni-əsasinin, konstitusiyanın, parlamentarizmin təməli qoyuldu. Bu prosesdə Azərbaycan xalqının milli və dini rəhbərlərinin, sadə xalqın əhəmiyyətli rolu vurğulanmışdı. Məhəmmədəli şaha qarşı, Rusiya və İngilis imperializminə qarşı Azərbaycan məşrutəçilərinin inqilabçı rəhbəri Sərdari-milli Səttarxan, müctəhid Siqqətülislam, ruhani və inqilabçı dövlət xadimi Şeyx Məhəmməd Xiyabani başda olmaqla Azərbaycan xalqı da qətiyyətlə mübarizə apardı, İran məşrutəsini, konstitusiyanı, parlamentarizmi müdafiə etdilər.

Tehranda hərbi lisey, Tehranda və İstanbulda ali tibb təhsili, Parisdə cərrahlıq ixtisası alan C.Heyət İranda ürək cərrahı kimi məşhur olmuş, eyni zamanda humanitar elmlərə də xüsusi diqqət göstərmişdir. Cavad Heyət İran türklərini assimilyasiya etməyə çalışan, onların ana dilinə, milli təhsilinə qadağalar qoyan Pəhləvi şah şah rejiminin süqutundan sonra Tehranda "Varlıq" jurnalını nəşr etməyə başladı. Jurnal İran türklərinə öz tarixini, dilini, ədəbiyyatını və mədəniyyətini öyrətməklə yanaşı, bəzi şovinist İran millətçilərinin "Siz türk deyilsiniz, monqollar sizi türkləşdirib" kimi səhv iddialarına da cavab verirdi. Jurnal İran türkləri ilə dünya türkləri arasında körpü qurmağa müvəffəq olmuşdu. Jurnalda İran türklərinin farslarla eyni din şərikliyi və ortaq vətəndaşlıq bağları, qardaşlığı vurğulanır və İranın ortaq vətən olması, bütün millətlərin bərabər hüquqlu yaşamaq ideyaları təbliğ edilirdi. Cavad Heyət filosof Rasselə əsaslanaraq deyirdi ki, mədəni müstəmləkəçilik siyasi müstəmləkəçilikdən daha faciəli və təhlükəlidir və onu yox etmək siyasi müstəmləkəçiliyin məhvindən daha çətindir.

C.Heyətin tibb elminə, xüsusilə cərrahlığa dair əsərlərilə yanaşı Azərbaycan türkcəsi və ədəbiyyatı və Azərbaycan türk tarixinə dair əsərləri də var. Bu əsərlər İranda, Türkiyədə, həm də Azərbaycanda nəşr edilmiş, böyük həvəslə oxunub müəllifinə hörmət qazandırmışdır. Bunlara nümunə olaraq, "Azərbaycan ədəbiyyatı tarixinə baxış", "Türklərin tarix və mədəniyyətinə bir baxış", "Azərbaycan şifahi xalq ədəbiyyatı", "Türk dili və ləhcələrinin tarixi" və s. əsərlərini göstərmək olar.

Onun "Türklərin tarix mədəniyyətinə bir baxış" əsərində və "Azərbaycan ədəbiyyatına bir baxış" əsərində dini məsələlərə və dini maarifçiliyə də yer verilib.

Cavad Heyət türklərin islamdan əvvəl fərqli dinlərdə - buddizmndə, xristianlıq, yəhudilik və s. mənsubu olduqlarını yazır. O, xristian qıpçaqlar və onlara xristianlığı təlim etmək üçün yazılan "Kodiks Kumanikus və ya qıpçaq məcmuəsi" haqqında da, onun təmiz türk dili ilə yazılmasından bəhs edir. Qeyd edək ki, erməni əlifbası ilə orta əsrlərdə yazılmış türkdilli əlyazmalar günümüzə qədər gəlib çatmışdır.

***(Davamı var)***

***Əli FƏRHADOV,***
***t.ü.f.d., dosent,***
***Milli Azərbaycan Tarixi Muzeyinin aparıcı elmi işçisi, Bakı,***
***ali_farhadov@yahoo.com***